# *BƏƏ naziri:* "İqlim dəyişikliyi ilə mübarizədə turizm sahəsinin transformasiyasına sadiqik"



**Birləşmiş Ərəb Əmirlikləri (BƏƏ) iqlim dəyişikliyi ilə mübarizədə turizm sahəsinin transformasiyasına sadiqdir.**

"Report" xəbər verir ki, bunu BƏƏ-nin iqtisadiyyat naziri Abdullah bin Touq Al Marri BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində keçirilən turizm sektorunda Təkmilləşdirilmiş İqlim Fəaliyyəti üzrə Nazirlərin Birinci Görüşündə bildirib.

Onun sözlərinə görə, turizm həm mühüm iqtisadi hərəkətverici qüvvə, həm də iqlim dəyişikliyinin təsirlərinə qarşı həssas olan sektordur: "Turizm bir çox ölkələrdə davamlılıq və inklüzivlik baxımından əhəmiyyətli olduğu üçün 2030 Dayanıqlı İnkişaf Məqsədlərinin (SDG) əsas hərəkətverici qüvvəsidir.

O bildirib ki, turizm sektoru iqlim dəyişikliyi ilə mübarizədə əsas sahələrdən birinə çevrilməlidir: "Bu sahənin transformasiyasına ehtiyac var. Biz bu transformasiyaya sadiqik. Dayanıqlı turizm BƏƏ-nin Yüzillik strategiyası çərçivəsində iqtisadi diversifikasiya konsepsiyasının təməl daşıdır. Biz turizm əməliyyatlarının dekarbonizasiyası, ekosistemlərin bərpası və iqlim davamlılığının gücləndirilməsi məqsədilə təşəbbüslər həyata keçiririk".

Azərbaycan.- 2024.- 21 noyabr (№ 256).- S.15.